# Sadə və təvazökar



**Zülfü Rzayev haqqında qeydlərimi edərkən qeyri-ixtiyari dahi rus bəstəkarı D.D.Şostakoviçin müdrik bir kəlamını xatırladım: "Musiqini, incəsənəti sevin və öyrənin, musiqi sizi kamil insan idealına daha artıq yaxınlaşdırır. Dünyanın bir çox dahiləri insanın mənəvi - psixoloji inkişafında musiqinin böyük rolunu dönə-dönə qeyd etmişlər. Hərgah insanın mənəvi dünyası qeyd etdiyimiz bu qiymətli hisslərlə zəngindirsə, deməli o, nə vaxtsa həyatda öz layiqli yerini tapacaqdır."**

*Rzayev Zülfü Rafiq oğlu 1967 - ci il noyabr ayının 30-da Sabirabad şəhərində anadan olmuşdur. 1975 - 1985 - ci illərdə Yuri Qaqarin adına (indiki N. Nərimanov adına orta məktəb) 2 nömrəli şəhər orta məktəbində təhsil almışdır.*

1985-ci ildə Donetsk vilayətinin Qorlovka şəhərində politexnik institutuna daxil olan Zülfü hərbi xidmət vaxtı çatdığı üçün ali məktəbi yarımçıq qoyaraq, ordu sıralarına yola düşür. 1987 - ci ildə hərbi xidməti başa vurduqdan sonra, yenidən ali təhsilini davam etdirməyə başlayır.

Lakin onun daxilində hökm sürən qeyri bir hiss Zülfüyə rahatlıq vermirdi. Bu, mədəniyyətə, musiqiyə, incəsənətə olan böyük həvəs idi. Məhz bu hislər onu oxuduğu ali məktəbi yarımçıq qoyaraq vətənə qayıtmağa məcbur edir.

Zülfü Rzayev 1990 - cı ilin yanvar ayından başlayaraq Sabirabad Rayon Mədəniyyət Şöbəsinin nəzdində fəaliyyət göstərən "Salam" beynəlmiləl estrada qrupunda bacarıqlı sənətkarlar qarşısında imtahan verdikdən sonra burada çalışmağa başlayır. Zülfü hələ orta məktəb illərində rus bölməsində təhsil aldığına görə Azərbaycan Sovet və Dünya Ədəbiyyatı inciləri ilə yaxından tanış olmuşdu.

Bu dil vasitəsi ilə məşhur dünya klassiklərinin əsərlərini oxuyaraq həmin yüksək dünyəvi idealları bugünkü həyatda da tətbiq etməyə çalışır. Zülfü müəllim əvvəllər "Salam" estrada qrupunda gitaraçı kimi






fəaliyyət göstərirdi. Sonradan rəhbərliyin göstərişi ilə qrupun bədii rəhbəri vəzifəsində çalışmağa başlayır.

O, burada həm bədii rəhbər, həm də vokalçı kimi fəaliyyət göstərirdi. Mən o illərdə yaradılmış həmin estrada qrupunun, "Muğan" xalq çalğı alətlər ansamblının və Adil İsgəndərov adına xalq teatrı kollektivinin parlaq çıxışlarının şahidi olmuşam.

1990 - cı ildə Bakıda keçirilən "Odlar Yurdu" Bakı-90 adlı musiqi festivalında iştirak etmək üçün sənəd təqdim edən gənc Zülfü parlaq istedadı ilə fərqlənir, ən yaxşı 15 ifaçı arasında yer tutaraq diploma layiq görülür.




Mətbuat səhifələrinə nəzər salarkən mənim diqqətimi "Vışka" qəzetinin 1990 - cı il 22 noyabr tarixli nömrəsində dərc olunmuş bir fotoşəkil cəlb etdi.

Həmin qəzet səhifəsində münsiflər heyəti üzvlərindən respublikanın xalq artisti, Azərbaycan Respublikasının Mədəniyyət naziri işləmiş, hal - hazırda Azərbaycanın Rusiya dövlətindəki səfiri, bəstəkar-müğənni və görkəmli ictimai xadim Polad Bülbüloğlunun, bəstəkar Tofiq Quliyevin, xalq şairi Vaqif Səmədoğlunun, ifaçılardan isə əməkdar artist Azərinin (Anaxanım Tağıyeva), Aybəniz Qasımovanın, Aygün Məlikovanın və müsaqibənin diplomantı Zülfü Rzayevin də şəkli var idi. Bu möhtəşəm müsabiqədə sonralar Respublikanın xalq artisti olacaq Azər Zeynalov da qaliblər sırasında olmuşdur.

Qeyd edim ki, Zülfü musiqi festifalının finalında özünün bəstələdiyi "Qayıt geriyə" və "Sənsiz" adlı mahnılarını ifa etmişdir.

Bu festifaıldan sonra Zülfü Rzayev mətbuatda dərc edilmiş elanlara əsasən Krımda keçiriləcək "Yalta-91" adlı festivalın təşkilat komitəsinə müraciət edərək, həmin festivalda iştirak etmək istədiyini Moskva şəhərindəki təşkilat komitəsinə göndərir.

Lakin müsabiqənin rəhbəri Yevgeni Semenkovun göndərdiyi cavab belə olur: “Hörmətli Zülfü Rzayev, sizin yüksək istedadınız olmasına baxmayaraq, siz bizim müsabiqənin rəsmi tələblərinə cavab vermirsiniz.”

Onlar bir cəhəti unudurdular ki, istedad heç bir ölçüyə gəlməz qiymətli xəzinədir. Zülfü bir müddət yaradıcılıqdan uzaqlaşır. 1991 - ci ildən 2005 - ci ilədək yaşadığı yerdə məhəllə yollarının abadlaşdırılması və bir çox xeyriyyə işlərində təşkilatçı kimi fəaliyyət göstərir. Zülfü müəllim həmin ildən sonra maraqlı bir ideya üzərində götür-qoy etməyə başladı.

Elə bu səbəbdən o, "Zülfü" Mərkəzi Studiyasını yaratmağa nail oldu. İndiki vaxtda bu studiya yüksək keyfiyyətli kompyuter xidmətləri gösərməklə yanaşı, hər növ foto xidmətləri, reklam afişaları, platformalar, dizayn və s. xidmətlər göstərir.

Studiya Sabirabad rayonunun və respublikamızın bir çox şəhər və rayonlarının mədəni-ictimai həyatında da müəyyən qədər fəallıq göstərməyə nail olub. Zülfü ilə bir neçə ildir tanış olduğumdan, onun şəxsi keyfiyyətlərinə müəyyən qə-


КӘНҸЛӘРИН БАКЫ МҮАСИР МУСИГИ МӘРКӘЗИ
БАКЫ ШӘҺӘР СОВЕТИ ИҸРАИЈЈӘ КОМИТӘСИ
АЗӘРБ. ССР-ин МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ
АЗӘРБ. ССР-ин БӘСТӘКАРЛАР ИТТИФАГЫ
БАКЫ ШӘҺӘР КОМСОМОЛ КОМИТӘСИ

«ОДЛАР ЈУРДУ» БАКЫ — 90
АЗӘРБАЈҸАН ПОПУЛЈАР МУСИГИ ФЕСТИВАЛЫ

ДИПЛОМ

Фестивалын
кәнҹ иҹрачылар мүсабигәсинин
дипломанты адына
Зүлфү Рзајев
лајиг көрүлүр

ТӘШКИЛАТ КОМИТӘСИНИН СӘДРИ
Тофиг Гулијев

dər bələd olmuşam. Z. Rzayev sadəliyi, səmimiliyi və təvazökarlığı ilə seçilir, insanlarda olan müsbət keyfiyyətləri özünəməxsus tərzdə aşkar etməyi bacarır.

Həyatda yaxşı mənada barışdırıcı mövqedə dayanmaqla hamının şəxsi dünyasına hörmətlə yanaşır.





23 oktyabr 2009 - cu il tarixdə Sabirabad şəhər gənclər mərkəzində "ZMS" MMC-yə məxsus iki veb saytının (www.zms.az və www.sabirabad.zms.az) təntənəli açılışı olmuşdur.

Bu saytda müxtəlif mövzularda hazırlanmış məlumatlar yerləşdirilmişdir. "Zülfü Mərkəzi Studiyası son vaxtlar bir sıra mədəni-kütləvi tədbirlərin reallaşmasında da mühüm rol oynamışdır.

Studiyanın nəzdində fəaliyyət göstərən "Dönüş" ədəbi məclisi və eyniadlı instrumental ansambl fəaliyyət göstərir.

Burada çoxlu sayda istedadlı insanlar toplaşıb. Studiyada həmçinin "Həyat" kompyuter kursları və "İdeallığa doğru" adlı xeriyyə fondu yaradılmışdır. Burada fəaliyyət göstərən kompyuter kurslarında neçə-neçə məktəbli və şəhər sakini bu sənətin sirlərinə yiyələnir.

Kollektiv həmçinin, Sabirabad rayon İdman və Gənclər İdarəsi ilə birlikdə bir sıra tədbirlər həyata keçirmişdir. Yalnız 2010 - cu ilin ötən dövründə 2 fevral Gənclər günü, 8 Mart Beynəlxalq Qadınlar günü və "Novruz" bayramı münasibəti ilə rəngarəng tədbirlər hazırlamışdır. Məhz görülən məqsədyönlü işlərin nəticəsidir ki, kollektiv "Novruz" bayramı ərəfəsində Şamaxı şəhərində olmuş və burada xeyriyyə məqsədi ilə mədəni-kütləvi tədbirlər həyata keçirmişdir.

Düşünürəm ki, respublikamızın müxtəlif rayonlarında belə istedadlı insanlar fəaliyyət göstərərsə, onda onlar yetişməkdə olan gənc nəsilin sağlam ruhda yetişmələri üçün böyük işlər görə bilərlər.

**Bu gün Muğanda, "Xavərzəmin" torpağında öz xeyirxah əməlləri ilə yaşayan bir kollektiv fəaliyyət göstərir. Kollektivin rəhbəri və təşkilatçısı Zülfü Rafiq oğlu Rzayevdir. Bu təvazökar insan, xalqına layiqli xidmət etmək üçün daim yeni-yeni yollar axtarışındadır. Uğurlar olsun!**

**Mahir ƏBİLOV,**
*zona muxbirimiz*

